AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

ANTİPLAGİAT SİSTEMİ VƏ ƏQLİ MÜLKİYYƏT ÜZRƏ

QAYDALAR

ATMU-APPƏM-Q(APPƏM)-01

Bakı-2023

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
20.11.2023	01	Sənubər Qənbərova	İlkin versiya

MÜNDƏRİCAT

1. ÜMUMİ MÜDDƏALAR …….....4
2. ƏSAS ANLAYIŞLAR ….....5
3. İŞLƏRİN YÜKLƏNMƏSİ PROSEDURU ….....6
4. İŞLƏRİN PLAGİATA DAİR QİYMƏTLƏNDİRMƏ MEYARLARI 7
5. APELLYASİYA.....8
6. ATMU-DA ƏQLİ MÜLKİYYƏTLƏ ƏLAQƏDAR TƏLƏBLƏR.....8

Təsdiq edirəm
Azərbaycan Turizm və Menecment Universitetinin
rektoru _____ İlham Mədətov
"21" _____ 2023-cü il

ATMU-APPƏM-Q(APPƏM)-01

Azərbaycan Turizm və Menecment Universiteti

ANTİPLAGİAT SİSTEMİ VƏ ƏQLİ MÜLKİYYƏT ÜZRƏ QAYDALAR

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Konstitusiyası, "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2019-cu il tarixli Fərmanı, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının 5 iyun 1996-cı il tarixli Qanunu; "Təhsil müəssisələrində hazırlanan tədris vəsaitlərində plagiat halları ilə mübarizənin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Təhsil Nazirinin 05 iyul 2016-cı il tarixli əmri; "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 22 may 2012-ci il tarixli Qanunu və Azərbaycan Respublikasının digər müvafiq qanunları və normativ hüquqi aktları ilə tənzimlənir;

1.2. Bu Qaydalar bakalavr, magistr, doktorluq və digər elmi işlərin yoxlanılmasını nəzərdə tutur;

1.3.Yoxlamanın müsbət nəticəsi imtahana (müdafiəyə) buraxılma üçün zəruri şərtdir;

1.4. Rektor tərəfindən təyin edilmiş Azərbaycan Turizm və Menecment Universitetində Antiplagiat sisteminin istifadəsinə nəzarəti həyata keçirmək üçün yaranmış Komissiyanın

müsbət rəyi bakalavr, magistr, doktorantların imtahana (diplom müdafiəsinə) buraxılması üçün əsasdır;

1.5. ATMU-da Əqli mülkiyyət hüquqlarının pozulmasına dair mülki işlərlə əlaqədar sübutların tələb olunması və təmin edilməsi üçün tədbirlər Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

2. ƏSAS ANLAYIŞLAR

2.1 **Oxşarlıq Əmsalı 1 (OƏ1)** sənədlərin hansı hissəsində universitetin məlumatlar bazasında, məlumatlar bazalarının mübadilə proqramının məlumatlar bazasında, RefBooks məlumatlar bazasında və internet mənbələrinin məlumatlar bazasında (Hüquqi aktlar bazası istisna olmaqla) 5 və ya daha çox sözdən ibarət ifadənin olduğunu müəyyən edir. Oxşarlıq əmsalı 1 əsasən sənədlərin müəllifinin dil müstəqilliyini öyrənmək üçün istifadə olunur;

2.2 **Oxşarlıq Əmsalı 2 (OƏ2)** sənədlərin hansı hissəsində yuxarıda göstərilən məlumatlar bazalarında (Hüquqi aktlar bazası istisna olmaqla) 25 söz və ya daha çox sözdən ibarət ifadənin olduğunu müəyyən edir. Aşkarlanan ifadələrin uzunluğuna görə Oxşarlıq Əmsalı 2 icazəsiz alınmaların aşkarlanması üçün ən yaxşı vasitədir;

2.3 **İstinad əmsal dəyəri** təhlil edilmiş sənədin hansı hissəsinin istinada daxil olduğunu göstərir (" " işarəsi ilə başlanılır və bitirilir). Sistem yalnız düzgün dırnaq işarəsinə alınmış istinadları nəzərə alır. Sistem istinadların qanuni şəkildə istifadə edilməsini təhlil etmir. İstinad əmsalı köməkçi vasitədir və onun hesablanmasının mexaniki xüsusiyyəti hesabatın təhlili zamanı nəzərə alınır;

2.4 **Yaşıl fraqment** – internet mənbələrdən olan fraqmentlər;

2.5 **Qırmızı fraqment** – Yerli məlumatlar bazasından və məlumatlar bazalarının mübadilə proqramından olan fraqmentlər;

2.6 **Mavi fraqment** - Eyni oxşarlıq mənbəyindən olan bütün fraqmentlər, istifadəçi bu mənbəyə kliklədikdə yaşıl, qırmızı, narıncı olan hər bir fraqment mavi rəngə keçir;

2.7 **Narıncı fraqment-**RefBooks məlumatlar bazasının resurslarından fraqmentlər;

2.8 **Fonu sarı fraqment** – sistem tərəfindən sənədin yazıldığı işaralərdən başqa digər işarələrə aid olduğu müəyyən edilmiş simvollar;

2.9 **Fonu bənövşəyi fraqment**-Dırnaq içərisində olan mətn;

2.10 **Əqli mülkiyyət** – qanunvericilik aktları ilə müəyyən edilmiş hallarda və qaydada vətəndaşın, yaxud hüquqi şəxsin intellektual yaradıcılığın nəticələrinə, yaxud ona bərabər tutulan məhsulların, yerinə yetirilən iş və xidmət növlərinə (firma adı, əmtəə nişanı, xidməti nişan və s.) müstəsna hüquqdur;

2.11 **Əqli mülkiyyət hüquqları** – müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə (ənənəvi mədəni nümunələrə), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə hüquqlar.

3. İŞLƏRİN YÜKLƏNMƏSİ PROSEDURU

3.1. Universitetin operatorunun istifadəçi hesabı akademik il başladıqdan sonra bir ay ərzində sistem administratoru tərəfindən yaradılır;

3.2. Operator işi Strikeplagiarism.com sisteminə şəxsən özü yükləyir;

3.3. İş sistemə DOC və DOCS formatında yüklənir. İşin digər formatlarda yüklənməsi qəti qadağandır. Bu qaydanın pozuntusu universitetin akademik etikasının pozuntusuna bərabərdir;

3.4. Tələbələrin işləri (buraxılış işi, magistr və doktorluq dissertasiyaları) müdafiədən 30 gün öncə plagiata yoxlanılır;

3.5. Buraxılış işlərinin plagiata dair qiymətləndirilməsi müdafiədən 10 gün öncə sona çatır;

3.6. Qəbul olunmuş son tarix pozuntusu olduqda iş elmi rəhbər (ekspert) tərəfindən qiymətləndirməyə qəbul edilə bilməz. İşin qəbul olunması universitetin etika məcəlləsinin pozuntusu kimi qəbul olunur;

3.7. Operator Strikeplagiarism.com tərəfindən elektron poçt ünvanına göndərilən bildirişdən sonra 24 saat ərzində müəlliflərə hesabatı göndərir;

3.8. Tələbə oxşarlıq hesabatı, elmi rəhbər (ekspert) tərəfindən əlavə edilmiş rəylərin siyahısı və bununla da, elmi rəhbərin (ekspertin) qiymətləndirmə protokolunda əks olunan qərar ilə tanış olmaq imkanı əldə edir;

3.9. Sistem oxşarlıq hesabatını sistem tərəfindən təhlil sona çatandan sonra dərhal Qiymətləndirən şəxsin (elmi rəhbər və komissiya üzvlərinin) email ünvanına göndərir;

3.10. Tələbəyə işi yoxlamaya yükləmək üçün 1 dəfə fürsət verilir;

3.11. İşdə düzəliş olunandan sonra onu təkrar yoxlama müəllifin öz hesabına həyata keçirilir;

3.12. Ekspert və ya elmi rəhbərə işin təhlili, rəylərin əlavə olunması və qərarın qəbul edilməsi üçün 5 iş günü verilir;

3.13. Yoxlama nəticəsində üç qərardan biri verilir: 1. İşi qəbul etmək; 2. Düzəliş üçün geri qaytarmaq; 3. Diskvalifikasiya etmək;

3.14. StrikePlagiarism.com sistemində hər bir variantı seçdikdə ekspert və ya elmi rəhbər xüsusi xanada öz qərarını əsaslandırır;

3.15. Bu əsaslandırma sistemdə hər iş üçün olan qiymətləndirmə protokolunda əks olunur və sistem vasitəsi ilə oxşarlıq hesabatı ilə birgə sənəd müəllifin elektron ünvanına göndərilir;

3.16. "Qəbul et və yekunlaşdır" düyməsini basdıqdan və iş qəbul olunduqdan sonra sistem müstəqil olaraq onu məlumatlar bazasına əlavə edir. Bununla yoxlama prosesi sona çatır;

3.17. Qiymətləndirmə protokolları Strikeplagiarism.com sistemində saxlanılır, protokolların məzmununu dəyişmək mümkün deyil.

4. İŞLƏRİN PLAGİATA DAİR QİYMƏTLƏNDİRMƏ MEYARLARI

4.1. **Plagiatın olmaması** – hər hansı bir müəllifdən alınmış hər bir mətn fraqmenti üçün müəllifə istinad verilməlidir və biblioqrafiyada əks olunmalıdır;

4.2. **Özünü plagiatın olmaması** – daha əvvəl dərc olunmuş öz işindən götürülmüş hər bir mətn fraqmentinə müəllifə istinad verilməlidir və biblioqrafiyada əks olunmalıdır. Ekspert (elmi rəhbər) işi plagiata dair təhlil edərkən Oxşarlıq hesabatındakı özünə istinadları müvafiq seçimi seçərək qəbul etməlidir. Fraqmentləri özünə istinad kimi qəbul edərkən, tələbənin mətnindəki hər alınmış fraqmentin daha əvvəl dərc olunmuş məqaləyə istinad kimi verilməsində və biblioqrafiyada əks olunmasında əmin olmaq lazımdır. Özünə istinadın qəbul olunması istinadın verilməsi zəruriyyətindən azad etmir;

4.3. **Mətndə manipulyasiyaların olmaması** – mətndə plagiatı (fırıldaqçılığı) gizlətmək məqsədi ilə məqsədyönlü manipulyasiyalar olunduğu halda ekspert (elmi rəhbər) qanunvericilik və universitetin daxili prosedurları çərçivəsində müvafiq tədbirlərin görülməsi üçün ali təhsil müəssisəsinin rəhbərliyinə bu haqda məlumat verməlidir. Rəhbərliyə bu növ faktlar haqqında məlumatın verilməməsi fırıdaqçılığın məqsədyönlü şəkildə gizlədilməsi kimi qəbul olunur. Sistemin mümkün texniki nasazlıqları səbəbindən hər manipulyasiya halı dəqiq təhlil olunmalıdır, antiplagiat sisteminin provayderi fırıldaqçılıq faktını təsdiq etmədiyi halda müəllif fırıldaqçılıqda günahlandırıla bilməz;

4.4. Beynəlxalq təcrübəyə uyğun olaraq Birinci Oxşarlıq Əmsalı (OƏ1) göstəricilərinin 30%-i, İkinci Oxşarlıq Əmsalı (OƏ2) isə 5%-i keçməməlidir;

4.5. Hər alınmış fraqment parafraz olunmalıdır. Qanunvericilik aktları, folklor, metodoloji təsvir və müəllif işi hesab oluna bilinməyən digər mətn fraqmentləri parafraz zəruriyyətindən azad edilir. Bu fraqmentlər mümkün oxşarlıq səviyyəsinə daxil olmalıdır (30%- OƏ1 və 5% - OƏ2).

5. APELLYASİYA

5.1. Qərarın nəticəsi ilə razılaşmadıqda qərarın bəyan olunmasından iki iş günü ərzində Rektora apellyasiya müraciəti təqdim etmək hüququ verilir. Apellyasiya təqdim etmək çərçivəsi təmin edilmədikdə, həmçinin apellyasiya forması düzgün doldurulmadıqda rəsmi səbəblər baxımından rədd edilə bilər;

5.2. Rektor alınmış sənədlər və zərurət yaranarsa, şəxsi təhlil əsasında yekun qərarı qəbul edir. Rektor iş üzrə qərarı, işin müdafiəyə buraxılması, tamamlama işlərinin lazım olması, plagiatın mövcudluğu və intizam tədbirlərinin görülməsi zəruriyyəti haqqında qərarı apellyasiya verildikdən 10 iş günü ərzində verir;

5.3. Apellyasiya müraciəti yalnız bir dəfə verilə bilər;

5.4. İntizam prosedurlarına aid olan bütün şərtlər qanunvericilik və universitetin daxili prosedurlarına uyğun olaraq həyata keçirilir.

6. ATMU-DA ƏQLİ MÜLKİYYƏTLƏ ƏLAQƏDAR TƏLƏBLƏR

6.1. ATMU-da Hüquq sahibinin və ya onun nümayəndəsinin əsaslandırılmış müraciəti olduqda, əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqədar mülki işə baxan məhkəmə hüquqpozmaya yol verən şəxsdən pirat və ya kontrafakt məhsulların hazırlanmasında (istehsal edilməsində), yayılmasında və əqli mülkiyyət hüquqlarını pozan xidmətlərin göstərilməsində birbaşa, yaxud dolayı yolla iştirak edən üçüncü şəxslər barədə, həmçinin belə malların yayılma kanalları haqqında informasiyaların hüquq sahibinə verilməsini cavabdehdən tələb etmək hüququna malikdir;

6.2. Müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin hüquqi qorunmasını təmin etmək məqsədi ilə belə obyektlərdə unikal rəqəmli kodlardan istifadə olunur. Həmin kodlar müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin hazırlanmasının mənşəyi haqqında informasiyanı eyniləşdirməyə imkan verir;

6.3. ATMU-da müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə nəzarət markasının yaradılması və yapışdırılması həyata kecirilməsi nəzərdə tutulur;

6.4. Nəzarət markası olmayan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinin yayılmasına yol verilmir;

6.5. Müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərindən (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab), habelə nəzarət markalarından qeyri-qanuni istifadə edilməsi qanunla nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb olur.